2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 9 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 31 yanvar 2025-ci il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli-Ağcabədi seçki dairəsinin Sarıcalı bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Hacıyev Nizami Kamal oğlu, Qasımov Rəşad Həbib oğlu, Qasımov Ramin Həbib oğlu və Hacıyev Faxrəddin Mərkəz oğlunun səsvermə günü həmin seçki dairəsinin 50, 53 və 58 saylı seçki məntəqələrində baş vermiş qanun pozuntularının araşdırılmasına və bununla bağlı müvafiq tədbirlərin görülməsinə dair 31 yanvar 2025-ci il tarixli 9 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci maddəsinin tələbinə görə seçki subyektləri şikayəti müvafiq seçki komissiyasına təqdim edə bilərlər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Göstərilənlərlə müəyyən edilir ki, müraciət Seçki Məcəlləsinin müvafiq tələblərinin pozulması ilə daxil olmuşdur və ona görə də araşdırılması üçün aidiyyatı üzrə 85 saylı Füzuli-Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə əsasən **rəyə gəldim:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Füzuli-Ağcabədi seçki dairəsinin Sarıcalı bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Hacıyev Nizami Kamal oğlu, Qasımov Rəşad Həbib oğlu, Qasımov Ramin Həbib oğlu və Hacıyev Faxrəddin Mərkəz oğlunun 31 yanvar 2025-ci il tarixli 9 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova